# Qarabağ zəfəri tariximizin ən şanlı səhifəsidir



**Vətən müharibəsində İlahi ədalətin Azərbaycanın tərəfində olması, 30 ilə yaxın bir zaman ərzində 20 faiz torpağımızın işğal altında qalmasına baxmayaraq xalqımızın bu haqsızlığı unutmaması, yurd, od-ocaq sevgisi, Prezident İlham Əliyevin ərazilərimizin geri qaytarılması istiqamətində yürütdüyü müdrik siyasət, Qarabağın azadlığa qovuşması kimi müqəddəs istəyimizin reallaşması naminə dövlətimizin başçısının ətrafında sıx birləşməsi tarixi zəfərimizi gerçəkləşdirdi.**

Düşmən qəsbkarlığı davam etdirdiyi dövrdə müəyyən vasitələrlə münaqişə ilə bağlı danışıqlardan yayınır, dünya güclərinin, nüfuzlu beynəlxalq təşkilatların isə bu məsələyə laqeyd yanaşmalarını görəndə isə daha da azğınlaşır, “yeni müharibələrlə yeni ərazilər” prinsipi ilə işğalı genişləndirmək iddialarını gizlətmirdi. Bu, işğalçının öz xoşu ilə torpaqlarımızdan çıxmaq istəmədiyini açıq-aydın göstərirdi. Şuşaya qondarma qurumun qondarma “parlamentinin” köçürülməsi, burada saxta andiçmə mərasiminin reallaşdırılması, Ermənistanın baş naziri Paşinyanın qəbuledilməz addımlar atması, bəyanatlar verməsi və “Qarabağ Ermənistandır” deməsi Azərbaycan xalqının heysiyyətinə toxunur, danışıqlar prosesinə son qoyurdu. Bütün bunlara daha dözmək, səbr nümayiş etdirmək mümkün deyildi. Artıq düşmənə dərs verməyin, yerini göstərməyin məqamı yetişmişdi. Bu da 2020-ci il sentyabrın 27-nə təsadüf etdi. Həmin gün Ermənistan hərbi birləşmələrinin bütün təmas xətti boyunca keçdiyi hücuma Azərbaycan Ordusu əks-həmlə əməliyyatları ilə cavab verdi. Qırx dörd gün ərzində dövlət başçımızın sözləri ilə desək, minlərlə, on minlərlə Azərbaycan gənci, əsgəri, zabiti sinəsini qabağa verərək işğalçıya öz yerini göstərdi, düşməni heç vaxt çıxa bilməyəcək bir vəziyyətə saldı. Bununla da “məğlubedilməz erməni xalqı, yenilməz Ermənistan ordusu” nağılı sonu çatdı. Ermənistan Azərbaycanın şərtlərini qəbul edərək, 2020-ci il noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktını imzalayaraq ölkəmizin qarşısında ağ bayraq qaldırdı.

İkinci Qarabağ savaşı getdiyi 44 gündə olduğu kimi, müharibədən ötən bir ildə də xalqımızın ölkə rəhbərinə bağlılığı daha da gücləndi. Prezident İlham Əliyev Azərbaycanın rayonlarına ardıcıl səfər ənənəsini davam etdirdi. Bu zaman işğaldan azad edilən Qarabağ bölgəsində olub, burada insanlarla görüşməyi, onların qayğılarını, sevinclərini bölüşməyi prioritet məsələ kimi diqqətdə saxladı. Elə bunun nəticəsi idi ki, dövlətimizin başçısı 2021-ci il ərzində Şuşa, Füzuli, Xocavənd, Zəngilan, Cəbrayıl, Laçın, Qubadlı, Kəlbəcər, Ağdam və Tərtərə ümumilikdə 32 dəfə səfər etdi. Bu səfərlər çərçivəsində Prezident İlham Əliyev yurd-yuvalarına qovuşan keçmiş məcburi köçgünlərlə görüşməklə bərabər, 21 sosial-iqtisadi obyekt və mədəniyyət abidəsinin açılışını gerçəkləşdirdi, 37 obyektin təməlini qoydu, yenidənqurma, abadlıq-quruculuq tədbirləri ilə bağlı dəyərli tapşırıq və tövsiyələrini verdi.

Yeri gəlmişkən, həmin görüşlərdə xalqın öz Prezidentinə sevgisini ifadə edən bəzi məqamları diqqətə çatdırmaq istərdik. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev noyabrın 8-də Şuşada hərbçilər qarşısında çıxış edərək, İkinci Qarabağ müharibəsinin şanlı tariximizin parlaq səhifəsi olduğunu bildirdi. Dövlətimizin başçısı xalqımızın bütün gücünü səfərbər edib bu şanlı missiyanı yerinə yetirdiyini vurğuladı. Ölkə Pprezidenti daha sonra işğal dövründə hər bir Azərbaycan vətəndaşının bu müqəddəs günü öz işi, öz əməli ilə yaxınlaşdırmalı olduğunun zəruriliyini dəfələrlə dediyini xatırlatdı. Bununla belə Azərbaycan xalqının heç vaxt işğalla barışmayaraq, nəhayət, bütün gücünü səfərbər edib bir nöqtəyə vurduğunu, düşməni tarixi torpaqlarımızdan qovduğunu dedi: “2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçilən zaman Azərbaycan xalqına müraciət edərək demişdim ki, nəyin bahasına olursa-olsun, biz öz tarixi torpaqlarımızı düşmənin əlindən alacağıq. İstər sülh yolu ilə, istər müharibə yolu ilə və belə də oldu. Uzun illər aparılan sülh danışıqları heç bir nəticə vermədi. Nəticə sıfra bərabər oldu. Əksinə, düşmən daha da azğınlaşmış, qudurmuşdu. Əgər işğalın ilk illərində hələ danışıqlarla bağlı Azərbaycan xalqında və məndə hər hansı bir ümidlər var idisə, son vaxtlar bu ümidlər tamamilə aradan qaldırıldı. Ermənistan və onun havadarları bu işğalı əbədi etmək istəyirdilər. Onlar hesab edirdilər ki, əgər bizim torpağımızı 30 ilə yaxın işğal altında saxlaya biliblərsə, bundan sonra da torpaqları əbədi olaraq işğal altında saxlayacaqlar. Amma səhv etdilər. Onlar bilməli idilər ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq. Bilməli idilər ki, biz düşməni torpağımızdan nəyin bahasına olursa-olsun qovacağıq. Buna hazır olmalı idik, xalq olaraq, dövlət olaraq, bütün hazırlıq işləri vaxtlı-vaxtında aparılmalı idi və aparılmışdır”.

Beləliklə, Azərbaycan 17 ildə iqtisadiyyatı gücləndirməklə, iqtisadi müstəqilliyi təmin etməklə ordu quruculuğunu diqqətdə saxladı, hərbi potensialı möhkəmləndirdi. Bununla da siyasi müstəqilliyə nail oldu. Bu, Azərbaycana bütün tərəfdaşlarla bərabərhüquqlu, qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında münasibətlər qurmaq imkanı yaratdı. Belə bir şərait isə torpaqlarımızın azad edilməsi üçün əsas şərtlərdən birinə nail olmaq demək idi.

Vətən müharibəsində qələbəmizi şərtləndirən ən mühüm amillərdən biri də Qarabağ həqiqətlərinin dünyaya çatdırılması idi. Xatırladaq ki, Birinci Qarabağ savaşından ötən bir neçə il ərzində Azərbaycan bu məsələ ilə bağlı elə bir ciddi uğur əldə etməmişdi. Torpaqlarımız işğal olunmasına baxmayaraq, düşmən bu barədə beynəlxalq ictimaiyyətdə təhrif edilmiş təsəvvür formalaşdıra bilmişdi. Prezident İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə mövcud problem tədricən aradan qaldırıldı, Qarabağ həqiqətləri aparıcı beynəlxalq təşkilatların diqqətinə çatdırıldı, həmin qurumlar tərəfindən münaqişəni doğru-düzgün əks etdirən qərar və qətnamələr qəbul olundu. Bütün bu işlər Vətən savaşının gedişində mövcud reallıq üçün hüquqi baza rolunu oynadı. Buna görə də işğalçı məğlub edilərək torpaqlarımızdan qovulanda dünya bunu anlayışla qarşıladı. Əksər xarici dövlətlərdə Azərbaycanın uğurlu əks-həmlə əməliyyatı keçirməklə beynəlxalq hüquq əsasında ədalətli müharibə aparması və döyüş meydanında düşməni məğlub etməsi heç bir şübhə doğurmadı.

Azərbaycan 44 gün ərzində ədalətli, ləyaqətli müharibə apardı. Bütün dünyaya kimin kim olduğunu göstərdi. Bütün dünyaya xalqımızın böyük xalq olduğunu nümayiş etdirdi. Erməni tərəf isə istər işğal dövründə, istərsə də savaş zamanında faşist xislətlərini, barbar, vandal xarakterlərini sübuta yetirdi. Bunu indi özləri də etiraf edirlər. Məsələn, sosial şəbəkə hesabında erməni müəllif Ruben Vartazaryanın fikirləri bütün Ermənistanda səs-küy yaradıb: “Mən Ağdam, Zəngilan, Cəbrayıl və Azərbaycanın digər şəhərlərinə televiziyadan tamaşa edəndə dəhşətə gəldim: “Axı bu ərazilərdə necə döyüşlər gedib ki, bir dənə də olsun qapı və pəncərə, yaxud salamat ev qalmayıb? Bəlkə Ermənistan Ağdam və Zəngəlan istiqamətində hidrogen bombasından istifadə edib?!.”.

Ruben Vartazaryan daha sonra yazıb: “Hörmətli oxucular! Yəqin ki, monqol hücumları haqda eşitmisiniz. Təxminən min il bundan əvvəl monqolların düşmənin yaşayış məntəqələrini necə ələ keçirmələri, sonra talan etmələri, daşı-daş üstə qoymamaları haqda təsəvvürünüz var. Siz mütləq buna oxşar bir şey eşitmisiniz. Çünki uşaqlarını monqollarla qorxudan insanların əksəriyyəti cəmi min il sonra öz yurd-yuvalarından didərgin düşən azərbaycanlıların əmlakını talamaqla məşğul olurdular”.

Erməni müəllifin sözlərinə görə, apardığı araşdırmalardan sonra ona məlum olub ki, soydaşları tərəfindən Azərbaycana heç də hidrogen bombası atılmayıb, şəhər və kəndlər barbarcasına talanmaqla, qəbiristanlıqlar vəhşicəsinə dağıdılmaqla, yaşıllıqlar baltalanmaqla xarabalığa çevrilib. Ermənistan hökuməti isə bu vandallığın qarşısında susmaqla faşist xislətini bütün dünyaya nümayiş etdirib: “İndi dünyaya nə cavab verək? Nə deyək? Deyək ki, tornado Azərbəycan ərazisinin ¼ hissəsini məhv edib?”.

Vartazaryan qeydlərinin sonunda barbar adlandırdığı soydaşlarını Azərbaycan Prezidenti İlham Əliyevin gördüyü işlərə də baxmağa çağırıb. O, Şuşadakı Qazançı kilsəsinin əvvəlki görkəminə uyğun təmir edildiyini bildirməklə, azərbaycanlıların tolerant xalq olduğunu, bütün dinlərə hörmətlə yanaşdıqlarını, ermənilərin 30 il ərzində yerlə yeksan etdikləri yaşayış məntəqələrinə indi yeni həyat verməklə bu yerləri gülüstana çevirdiklərini bildirib.

**V.BAYRAMOV,**
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 13 yanvar.- S.6.